

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 91 (23.253)

16 may 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi – “WorldFood Azerbaijan” və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – “Caspian Agro” sərgiləri ilə tanış olub.

Dövlətimizin başçısına sərgilərlə bağlı məlumat verilib.

Prezident İlham Əliyevə Aqrar Məşğulluğun Artırılması Layihəsi barədə məlumat verilib.

Dövlətimizin başçısı sərgidə “Azersun”, “Grow Group Azərbaycan”, CASE, “Grimme”, “Agro Dairy”, CLAAS, “John Deer”, “Rostselmaş”, “Cahan Tobacco”, “Lindsay”, “Geoflow”, METAK, GİLAN, İMAGRO, “Agronaft”, “Prior Leasing” şirkətlərinin, Gəncə avtomobil zavodunun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Rusiya Federasiyasının Başqırdıstan Respublikasının, Belarusun, İtaliyanın, Türkiyənin, Niderlandın, Gürcüstanın stendləri ilə tanış olub.

Dövlətimizin başçısı “WorldFood Azerbaijan” və “Caspian Agro” sərgilərinin işinə uğurlar arzulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.




## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul edilmişdir

2019-cu ilin may ayının ilk 15 günü ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul edilmişdir.

Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Əllə toxunmuş xalçaların reyestr sistemi”nə daxil edilməsi nəzərdə tutulan xalçalara dair məlumatlar haqqında” 2019-cu il 2 may tarixli 57 nömrəli Qərarı qəbul edilmiş, həmin tarixli 56 nömrəli Qərara əsasən “Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 sentyabr tarixli 83 nömrəli Qərarında dəyişikliklər edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2019-cu il 6 may tarixli 59 nömrəli Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2011-ci il 19 iyul tarixli 71 nömrəli və “Ehtiyata və ya istefaya buraxılmış vətəndaşların bəzi kateqoriyalarına müvəqqəti mənzil kirayəsi xərclərinin məbləğinin və ödənilməsi qaydasının müəyyən edilməsi barədə” 2012-ci il 16 noyabr tarixli 94 nömrəli qərarlarına dəyişikliklər edilmişdir.

Bundan başqa, 2019-cu il 8 may tarixli Qərara əsasən “Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları” təsdiq edilmişdir. Qərara görə müəllimlərin işə qəbulu müsabiqəsində orta ixtisas musiqi təhsili müəssisəsi üçün ali, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom), yaxud ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənəd (arayış) almış, xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 61 nömrəli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında yerli xammala əsaslanan istehsal məhsullarının Azərbaycan Respublikasının digər bölgələrinə satış üçün daşınmasında yaranan xərclərin kompensasiya edilməsi Qaydaları” təsdiq edilmişdir. Bu Qərara əsasən Azərbaycan Respublikasının digər bölgələrinə satış üçün aparılan muxtar respublikadakı yerli xammala əsaslanan istehsal məhsullarının rəqabət qabiliyyətinin artırılması, yeni bazarlara çıxışın təmin olunması üçün yük maşınlarının tranzit hərəkəti zamanı İran İslam Respublikasında alınan müxtəlif növ ödənişlərə görə yol xərclərinin kompensasiya edilməsi nəzərdə tutulur.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti**

## “İdeyadan başlanğıca” startap layihələri ilə bağlı görüş keçirilib

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinə hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirilib.*



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müvafiq sərəncamın icrası istiqamətində universitetdə keçirilən tədbirlərin artıq ənənə halı aldığını vurğulayıb. Diqqətə çatdırılıb ki,“İdeyadan başlanğıca” devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin həyata keçirilməsi hamiliyə verilən təhsil müəssisələri və hami təşkilatlar qarşısında əsas vəzifə kimi müəyyənləşdirilib.

Naxçıvan Muxtar Respublikası Vergilər naziri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev bildirib ki, bugünkü tədbirin məqsədi qarşılıqlı fikir mübadiləsi aparmaqla yeni innovativ fikirlərin, layihələrin üzə çıxarılması və bu layihələrin gerçəkləşdirilməsində tələbələrə dəstək göstərməkdən ibarətdir. Nazir rəqəmsal texnologiyalara, elektron biznesə, proqram təminatı kimi innovativ sahələrə əsaslanan startap layihələrinə tətbiq edilən vergi güzəştləri haqqında məlumat verib. Bildirib ki, 2019-cu ildən tətbiq edilən ən mühüm vergi güzəştlərindən biri də məhz mikro və ya kiçik sahibkarlıq subyektlərinə təqdim olunmuş startap layihələrinin 3 il müddətinə mənfəət və gəlir vergilərindən azad edilməsidir.

Qeyd edilib ki, artıq hamiliyə verilmiş ixtisasın tələbələri ilə Vergilər Nazirliyində “İdeyadan başlanğıca” devizi altında görüşlər keçirilib, hətta müəyyən təkliflər, fikirlər, ideyalar nazirliyin rəsmi internet səhifəsində yerləşdirilmiş startap layihələrinin onlayn qəbulu bölməsinə göndərilib.

Nazirliyin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Qəzənfər Bayramov slayd vasitəsilə startap layihələrin hazırlanma və dəyərləndirmə metodlarından, muxtar respublikada həyata keçirilən uğurlu startap layihələrindən bəhs edib. Tələbələr innovativ layihələrin işlənib hazırlanması, əsaslandırılması və təqdim olunması istiqamətində məlumatlandırılıb, startapın kiçik biznesdən fərqli cəhətləri izah edilib.

Nazirliyin əməkdaşı Zahid Qənbərov vurğulayıb ki, Vergilər Nazirliyinin rəsmi internet səhifəsində “Startap layihələrinin qəbulu üçün müraciət” bölməsi yaradılıb. Nazirliyin saytı ilə tanış olan tələbələrə bildirilib ki, hər hansı bir ideya, layihə və ya təklif əsasında saytın startap layihələri üçün yaradılan bölməsinə müraciət edə və müvafiq dəstək ala bilərlər.

**Səadət ƏLİYEVA**

*Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasının ölkə başçısı tərəfindən uğurla davam etdirilməsi iqtisadiyyatın bütün sahələri üzrə müsbət dinamikanın qorunub saxlanılmasına imkan yaradıb. Ölkəmizin iqtisadi qüdrətinin ildən-ilə artması əhalinin sosial müdafiəsi ilə bağlı tədbirlərin də əhatə dairəsinin genişlənməsinə səbəb olub.*

## Pensiyaçılara qayğı yüksək səviyyədədir



Əməkhaqqı, pensiya və təqaüdlərin istehlak tələbinə uyğun artırılması və indeksləşdirilməsi, mütəmadi olaraq əhalinin real gəlirlərinin bazar səviyyəsinə uyğunlaşdırılması, aztəminatlı insanların, əlillərin, şəhid ailələri və veteranların sosial müdafiəsinin təşkili, sosial sığorta qaydalarının və pensiya sisteminin təkmilləşdirilməsi sahəsində atılan addımlar Azərbaycan dövlətinin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Təkcə son 15 ildə minimum əməkhaqqı və pensiyaların bir neçə dəfə artırılması da qeyd olunanları təsdiq edir. Bu istiqamətdə tədbirlər cari ildə də davam etdirilib. Belə ki, martın 1-dən ölkə üzrə minimum aylıq əməkhaqqının artırılaraq 180 manat müəyyən edilməsi, minimum pensiyalardan 38 faiz artaraq 116 manatdan 160 manata qədər qaldırılması birbaşa əhalinin rifahının yüksəldilməsinə xidmət edir. Dövlət başçısının “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə sosial müavinətlərin həcminin artırılması, əhalinin həssas qrupları üçün Azərbaycan Respublikası Prezidentinin yeni təqaüdlərinin təsis edilməsi isə sosial qayğıya daha çox ehtiyac duyan aztəminatlı ailələrə göstərilən yüksək diqqət və qayğının daha bir təzahürüdür.

Sosial müdafiə sistemində həyata keçirilən islahatlar muxtar respublikamızda da uğurla tətbiq edilir. Həyata keçirilən məqsədyönlü islahatlar, qəbul olunmuş müxtəlif dövlət proqramlarının müvəffəqiyyətli icrası muxtar respublikanın iqtisadi qüdrətini artırmaqla yanaşı, sosial müdafiə sahəsi üzrə də davamlı inkişafı təmin edib. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun qarşısına qoyulan öhdəliklərin də yüksək səviyyədə icrasına zəmin yaradıb.

Yaradılmış şərait pensiya və müavinətlərin artırılması ilə bağlı ölkə başçısının imzaladığı fərman və sərəncamların muxtar respublikamızda operativ qaydada yerinə yetirilməsi üçün geniş imkanlar açır. Məhz bunun nəticəsidir ki, dövlət başçısının 2019-cu il 7 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar muxtar respublika üzrə 48 min 900 nəfərə yaxın pensiyaçının əmək pensiyasının sığorta hissəsi cari il yanvar ayının 1-dən etibarən 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilərək 3 faiz artırılmaqla ödənişi vaxtında başa çatdırılıb. Bundan başqa, əmək pensiyalarının minimum məbləğinin artırılması ilə əlaqədar muxtar respublikada, ümumilikdə, 11 min 330 nəfər aşağı məbləğdə əmək pensiyası alan pensiyaçının pensiyalarının məbləği 160 manata çatdırılıb.

Muxtar respublikada pensiyaçılara yüksək səviyyədə xidmət göstərilməsi üçün pensiyaların ödənilməsi sistemində mütərəqqi üsullardan istifadə olunur. Hazırda bütün növ əmək pensiyaçıları plastik kartlar vasitəsilə öz pensiyalarını istənilən vaxt rahat şəkildə əldə edirlər. Kənd yerlərində yaşayan pensiyaçıların rayon mərkəzinə getmədən pensiyalarını ala bilməsi üçün də müvafiq tədbirlər görülüb, onların istəkləri nəzərə alınmaqla yerlərdə pensiyaların poçt bölmələri vasitəsilə ödənilməsi təşkil olunub.

Fond hər ay olduğu kimi, may ayında da əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb, tələb olunan vəsait pensiyaçıların plastik bankomat kart hesablarına köçürülüb. Həmçinin əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi təmin edilib.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**



## Ordum varsa, yurdum var

# Təlimlər ordunun qüdrətinin rəhnidir

***Ölkənin qüdrəti ordusunun gücü ilə ölçüldüyü kimi, ordunun da potensial imkanları onun silah-sursat arsenalının və döyüş qabiliyyətinin lazımi səviyyədə olması ilə səciyyələndirilir. Günümüzədək dünya tarixində baş verən müharibələri təhlil etsək, görərik ki, qazanılan qələbələrin təməlində heç də təkcə texniki üstünlük əsas olmayıb, uğurun əldə edilməsində döyüş hazırlığı da böyük rol oynayıb. Türk tarixinin şanlı səhifələrindən sayılan Çanaqqala zəfəri bu baxımdan ən gözəl nümunə ola bilər. Həmin vaxt gedən döyüşlərdə qarşı tərəfin texnikası güclü olsa da, türk əsgərinin şücaəti, əzmkarlığı və döyüş qabiliyyəti qalib gəldi. Elə ölkəmiz müstəqillik əldə etdikdən sonra ordumuzun qazandığı qələbələrin, xüsusilə də Aprel döyüşləri və Günnüt əməliyyatının uğurlu alınmasında güclü hərbi texnikamız, məğrur əsgərimizin şücaəti və təlim təcrübəsi həlledici rol oynadı. Əbəs yerə deyilməyib ki, təlimdə tər tökənin müharibədə qanı tökülməz...***

Əlahiddə Ümumqoşun Ordunun gücünün, qüdrətinin artırılması istiqamətində məqsədyönlü tədbirlərin dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilməsi təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu istiqamətdə reallaşdırılan işlər sırasında hərbi hissələr üçün yeni binaların tikilməsi, mövcud olanların əsaslı şəkildə yenidən qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi, ön xətdə yerləşən bölmələrin fəaliyyətinin səmərəli təşkili mühüm yer tutur. Həmçinin şəxsi heyətin döyüş qabiliyyətinin artırılması üçün təlim mərkəzləri dünya səviyyəli standartlara uyğunlaşdırılır. Bu işlərin davamı olaraq bu il mart ayının 9-da Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib.

Ötən günlərdə adıçəkilən hərbi əraziyə üz tutub orada yaradılan şəraitlə maraqlandıq. Öyrəndik ki, burada yeni yaşayış və xidmət binası inşa olunub, lazımi avadanlıqlar quraşdırılıb. Binada rabitə, ideoloji, yataq, yemək və texniki otaqlar yaradılıb. Təlim mərkəzində maneələr zolağı və təlim idarəetmə məntəqəsi də fəaliyyət göstərir, ərazidə 8 atəş sahəsi qurulub, yol infrastrukturu yenilənib, buraya 3000-dən artıq ağac tingi əkilib. Səhra təlimlərinin keçirilməsi üçün ərazidə yeni 300 nəfərlik düşərgə də qurulub ki, burada şəxsi heyətin günün nizam qaydasına uyğun olaraq qidalanması və xidmətin təşkili üçün müasir şərait vardır. Düşərgədə əsgərlərin fiziki güclərini artırmaları üçün futbol, basketbol, voleybol və ağır atletika ilə məşğul olmaları mümkündür. Bundan başqa, mərkəzdə mühəndis, topoqrafiya, artilleriya sinifləri, qarovulların hazırlığı üçün yerlər də müasir görkəmə salınıb ki, bu da əsgərlərin zehni biliklərinin praktik vərdişlərlə qarşılıqlı surətdə gücləndirilməsinə hesablanıb. Mərkəz istifadəyə veriləndən etibarən təlimlər təkcə gündüz şəraitində deyil, gecə müddətində də həyata keçirilir. Bu da şəxsi heyəti istənilən hava şəraitində hər an düşmənin maneələrini, atəş nöqtələrini aşkar edərək ona layiqli zərbə endirməyə hazırlayır.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, mayor Fərid Süleymanov bizimlə söhbətində keçirilən təlimlərin, praktik dərslərin əhəmiyyətindən danışdı. Qeyd etdi ki, şəxsi heyətin döyüş təcrübəsi qazanması, təlim-məşq vərdişlərinin artırılması üçün belə mərkəzin istifadəyə verilməsi arzuolunan idi. Əvvəllər imkanlar geniş olmadığından dərslər o qədər də ürəkaçan vəziyyətdə keçilmir, dərs prosesində, əsasən, köhnə, ənənəvi metodlara üstünlük verilirdi. Lakin indi təlim üçün lazımi avadanlıqlar var, burada əsgərlərin döyüş bacarıqlarını artıracaq, onları çəldliyə, dözümlülüyə alışdıran maneələr qoyulub, atəş hazırlığı günün tələblərinə uyğun həyata keçirilir. Gündəlik təşkil olunan praktik dərslər əsgərləri həm psixoloji, həm də fiziki cəhətdən döyüşə hazırlayır. Dərslərin üstün cəhətlərindən biri də odur ki, əsgərlər məşq zamanı döyüşdə bir-birləri ilə qarşılıqlı əlaqələri necə quracaqlarını öyrənirlər. Yəni hər kəs tutduğu vəzifəyə uyğun olaraq hansı tapşırığı yerinə yetirəcəyini dərk edir və onu tez bir zamanda yerinə yetirmək bacarığını dərindən mənimsəyir. Sevindirici haldır ki, ordumuzda əsgərlərin günü-gündən qabiliyyəti və potensialı ilə yanaşı, döyüş əhval-ruhiyyəsi də xeyli yüksəlir. Xüsusilə ötən ilin may ayında Günnüt əməliyyatında qazanılan qələbədən sonra bu hal özünü daha qabarıq şəkildə büruzə verir.



Mərkəzlə tanışlığımız əsgərlərin dərs müddətinə təsadüf etdiyindən maraqlı təəssüratlarımız yarandı. Kəşfiyyat zolağında ard-arda qurulan





26 maneəni böyük cəsarət və əzmlə keçən, praktik döyüş tapşırığını səlis yerinə yetirən əsgərlərlə də görüşüb bir neçəsinin fikrini öyrəndik. Şirvan şəhərindən hərbi xidmətə çağırılan Əlizamin Nəzərov bildirdi ki, artıq 6 aydır, Əlahiddə Ümumqoşun Ordunun bölməsində xidmət keçir. Xidmət etdiyi hərbi hissədə yüksək əhval-ruhiyyənin hökm sürdüyünü qeyd edərək dedi:

– Bu gün torpaqlarımızın 20 faizinin işğal altında qalması şəxsi heyətin hər an döyüşə hazır olmasını şərtləndirir. Bunu biz əsgərlər dərindən dərk edirik. Xidmətdə olduğum müddətdə zəngin hərbi biliklərə yiyələnməyə çalışıram. Komandirlərimiz bizimlə mütəmadi olaraq müxtəlif mövzularda söhbətlər aparır, keçilən praktik dərslərdə döyüş hazırlığının sirlərini öyrənirik.

Əlizamin Nəzərov onu da qeyd etdi ki, bu mərkəzin istifadəyə verilməsi məni və əsgər yoldaşlarımı çox sevindirdi. Çünki burada maneələr, istehkam qurğuları, taktiki sahələr tam müasir formada qurulduğu üçün gücümüzü, qabiliyyətimizi əvvəlkindən daha artıq inkişaf etdirə bilirik. Hədəflər orijinal üslubda olduğundan özümüzü sanki qarşımızda düşmən dayanırmış kimi hiss edirik. Beləcə, əzmimiz güclənir, hədəfin məhvinə can atır, bununla da bacarığımızı ortaya çıxarmış oluruq. Onu da yaxşı dərk edirik ki, doğma torpağımız daim vətənpərvər övladları ilə öyünüb. Vətən yolunda canından keçən mərd oğullarımız adlarını əbədi olaraq şanlı tariximizə yazdırıblar. Biz də həmin igidlərdən nümunə götürməli, bu şərəfli işə öz gücümüzlə, qabiliyyətimizlə töhfə verməliyik.

Əsgər Nicat Şıxəliyev İmişli rayonundan hərbi xidmətə çağırılıb. 22 yaşı olan Vətən oğlu 10 aydan çoxdur, Əlahiddə Ümumqoşun Orduda xidmət edir. O, Vətənin keşiyini çəkməyin böyük şərəf və məsuliyyətli iş olduğunu vurğulayaraq dedi:

– Deyirlər, əsgərlik ər meydanı, kişilik məktəbidir. Mən də orduya çağırılandan çalışıram ki, bu məktəbin qarşıma çıxardığı bütün sınaqlardan uğurla keçərək həm Vətənə olan müqəddəs borcumu layiqincə verim, həm də doğmalarımın, yaxınlarımın fəxrinə çevrilim. Artıq xidmətimin yarıdan çoxu arxada qalıb, burada əvvəllər təsəvvür belə, etmədiyim döyüş incəlikləri öyrənmişəm. Komandirlərimizin böyük biliyə, təcrübəyə malik olması və keçilən praktik dərslərin düzgün şəkildə təşkil edilməsi biz əsgərlərin döyüş hazırlığının daha da möhkəmlənməsinə şərait yaradır. Yeni təlim mərkəzinin istifadəyə verilməsindən sonra məşqlərimiz çoxalıb, xüsusilə gecə şəraitində keçdiyimiz dərslər daha önəmlidir. Çünki bu günədək baş verən müharibələrə nəzər yetirsək, görərik ki, döyüşlərin əksəriyyəti gecə vaxtı və yaxud da hava şəraitinin yaxşı olmadığı müddətlərdə aparılıb. Bu da, əslində, hücum edənin böyük döyüş taktikasıdır. Çünki belə vaxtlarda müdafiə tərəfinin qüvvələrinin hazırlıq vəziyyətinə gəlməsi bir az vaxt tələb etdiyindən bu hal hücum edənə böyük üstünlük qazandırır. Lakin biz təlimlər vasitəsilə bütün vəziyyətlərə vaxtında hazır olacağımızı yaxşı öyrənmişik və hər an düşmənə layiqli cavab verməyə qadirik.

Babək rayonundan çağırışçı olan Nurhan İbrahimov söhbətə qoşularaq dedi ki, bütün əsgər yoldaşlarım kimi, mən də hərbi xidməti Vətən qarşısında böyük mənəvi borcum hesab edirəm. Çünki Vətən bizim ən dəyərli varlığımız, müqəddəs and yerimiz, qibləgahımızdır. Hərbi xidmətə çağırılan gündən nizam-intizamlı olmağı, hərbi sirlərə dərindən yiyələnməyi, vicdanla xidmət etməyi özümə söz vermişəm. Komandirlərin təcrübəsindən və praktik dərslər zamanı bizə aşılanan biliklərdən maksimum faydalanmağa can atıram. Onu da bildirim ki, xidməti dövrdə özümə xeyli dost qazanmışam, maraqlı anlarla dolu yaddaqalan günlərimiz keçib. Əsgər yoldaşlarımla hər gün birgə keçdiyimiz praktik dərslərdə bir-birimizin gücünə, qabiliyyətinə daha yaxından bələd olur, həm də düşmənimizə qarşı birlik, bərabərlik nümayiş etdirməyi öyrənirik. Yeni təlim mərkəzində yaradılan döyüş, atəş sahələri də gücümüzü, cəsarətimizi, dözümlülüyümüzü artırır, bizə canlı döyüş ruhu aşılayır. Bütün əsgər yoldaşlarım adından yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

*Əzmli, vətənpərvər əsgərlərimizdən ayrılıb redaksiyaya qayıdarkən Xalq şairi Məmməd Arazın "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim" misraları yadıma düşdü. Bəli, əminliklə demək olar ki, bu gün doğma Vətənimiz belə güclü, dözümlü, bacarıqlı, döyüş qabiliyyətinə malik övladları ilə fəxr edir. Vətən oğulları yaradılan şəraitdən daha da səmərəli istifadə edərək səriştələrini artırır, yurdun keşiyində gecə-gündüz ayıq-sayıq dayanır, itirilmiş dədə-baba torpaqlarını hər an azad etməyi gözləyirlər.*

✍ **Nail ƏSGƏROV**

## Per Oddvar Hildre Naxçıvandakı xor kollektivləri üçün ustad dərsləri keçib



Mayın 15-də norveçli məşhur xor şefi və müəllimi Per Oddvar Hildre və Azərbaycanın incəsənət xadimlərindən ibarət nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər ediblər.

Qonaqlar əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyindəki eksponatlarla tanış olublar.

Sonra qonaqlar Naxçıvan Dövlət Universitetinin Konservatoriya binasında universitetin İncəsənət fakültəsinin xor kollektivinin ifasında musiqi nömrələrini dinləyiblər. Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi Naxçıvana səfərə gələn nümayəndə heyətinin üzvlərini tələbələrə təqdim edib. Bildirib ki, nümayəndə heyətində Azərbaycanın Xalq artisti, əfsanəvi "Qaya" ansamblının üzvü Rauf Babayev, Azərbaycanın Əməkdar artisti İlqar Muradov, yazıçı-publisist Əlibala Məhərrəmzadə, Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov və dünyada tanınmış norveçli musiqiçi, əfsanəvi "Skruk" xorunun dirijoru Per Oddvar Hildre vardır. Qeyd edilib ki, səfərin məqsədi Naxçıvandakı xor kollektivlərinin fəaliyyəti ilə yaxından tanış olmaqdır.



Daha sonra qonaqlar Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin xor kollektivlərinin ifasında musiqi nömrələrini dinləyib, öz fikirlərini, tövsiyə və məsləhətlərini veriblər.

Per Oddvar Hildre bildirib ki, kollektiv musiqi nömrələrini peşəkarlıqla ifa etdilər. O vurğulayıb ki, kollektivin üzvləri çox həvəsli və bacarıqlıdırlar. Onlar səhnədə tamaşaçılara fərqli üslubda, yeni bir ifa tərzində geniş repertuar təqdim etmək imkanlarına malikdirlər.

Sonra norveçli dirijor xor kollektivləri üçün ustad dərsi keçib.

Qeyd edək ki, həmin gün Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Milli Konservatoriyası arasında əməkdaşlıq müqaviləsi də imzalanıb.

Nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri davam edir.

**Tural AĞAYEV**

## Ukrayna saytı Naxçıvandan yazıb




Ukrayna Respublikasının *mega-polis.in.ua* saytında Naxçıvanla bağlı "Naxçıvan Azərbaycanın Avropanı xatırladan şəhəridir" başlıqlı geniş məqalə yerləşdirilib. Müəllifi Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü, "Regionda Media və Cəmiyyət" MMC-nin sədri, *diaspor.info* saytının təsisçisi və baş redaktoru, MDB ölkələri arasında diaspor təşkilatlarının fəaliyyətinin monitorinqini aparan jurnalist Əlmaniz Ələkbərli olan yazı muxtar respublikanın bugünkü inkişafı, tərəqqisi və sosial həyatından bəhs edir. Müəllif yazısında Naxçıvanı Azərbaycanda Avropa şəhərlərini xatırladan bir məkan kimi ukraynalı oxuculara təqdim edir. O vurğulayır ki, Naxçıvanda olan təmizlik və səliqə-sahman Avropanın İsveçrə, Avstriya, Almaniya kimi ölkələrinin şəhərləri ilə müqayisə edilir. Xidmət infrastrukturu, turizm obyektləri, insanlara, xüsusilə əcnəbi qonaqlara göstərilən diqqət müasir Naxçıvanda həyatın ayrılmaz bir hissəsidir.

Ukrayna dilində geniş oxucu kütləsinə çatdırılan yazıda bütün bunların muxtar respublika rəhbərinin qayğısı və diqqəti ilə ərsəyə gəldiyi bildirilir. Məqalədə Naxçıvanın müasir görüntüləri və yenidən bərpa edilən qədim abidələrinin fotoları da verilib.

***"Nuhçıxan" İnformasiya Agentliyi***

## Beynəlxalq Ailə Günü qeyd edilib

***Mayın 15-də Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan şəhərindəki "Təbriz" mehmanxanasında tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova açaraq muxtar respublikamızda ailələrə göstərilən dövlət qayğısından danışıb.

Qeyd olunub ki, muxtar respublikamızda da dövlət ailə siyasəti uğurla həyata keçirilir. Bu sahədə mühüm işlər görülür, aparılan sosial siyasət ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsinə, həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu gün Naxçıvan Muxtar Respublikasında 97 mindən çox ailə yaşayır. Bütün kateqoriyalardan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, 15 may – Beynəlxalq Ailə Günü dünya ölkələrinin diqqətini ailələrin çoxsaylı problemlərinə yönəltmək məqsədilə təsis olunub və 25 ildir ki, bu gün qeyd edilir. Cəmiyyətin əsas institutlarından biri, həmçinin insanın sosiallaşması prosesində ilk pillə olan ailə ətraf dünya ilə birlikdə dəyişir və inkişaf edir. Eyni zamanda ailə özü də cəmiyyətin formalaşmasında mühüm rol oynayır. Analitiklər belə hesab edirlər ki, ailə həm də dövlətin əsas sabitlik və inkişaf faktorudur. Müstəqil Azərbaycanda dövlət ailə siyasətinin əsas prinsiplərinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər milli-mənəvi dəyərlərin qorunmasının vacibliyini vurğulayaraq demişdir: ***"Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur".***

Qeyd edilib ki, görkəmli dövlət xadiminin ailə siyasəti Azərbaycanda bu gün də məqsədyönlü şəkildə həyata keçirilir, milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək deyib: ***"Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır".***

Vurğulanıb ki, bu gün ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət ailə siyasəti Prezident cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu təsdiqini tapır. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafına xüsusi təsir göstərir. Respublikamızda Ailə bayramının qeyd olunması da bu sahədə dövlət siyasətinin əyani təcəssümüdür. Ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin təbliği məqsədilə Naxçıvan Muxtar Respublikasında da dövlət ailə siyasəti uğurla həyata keçirilməkdədir. Artıq 10 ildir ki, Beynəlxalq Ailə Günü Naxçıvanda dövlət səviyyəsində qeyd olunur. Müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümü olan nümunəvi ailələr müəyyənləşdirilir, onlarla görüşlər keçirilir, hədiyyələr təqdim olunur, həyat təcrübələri televiziya və mətbuatda işıqlandırılır. Muxtar respublikamızda bütün kateqoriyadan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunur. Burada yaşayan aztəminatlı ailələr, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələrinin mənzillə təminatı diqqətdə saxlanılır, onların sosial müdafiəsi gücləndirilir. Gənc ailələrin mənzillə təminatı üçün əlverişli şərait yaradılır. Ailələrin sosial rifahının yaxşılaşdırılması üçün müavinətlər, ünvanlı sosial yardımlar təyin edilir. Hər il muxtar respublikamızda istifadəyə verilən onlarla təhsil, səhiyyə və mədəniyyət müəssisələri ailələrə nümunəvi tibbi xidmətin göstərilməsinə, gənclərin savadlı və dünyagörüşlü yetişməsinə, asudə vaxtlarını səmərəli keçirmələrinə xidmət edir. 2019-cu ilin Naxçıvanda "Ailə təsərrüfatları ili" elan edilməsi də ailələrin sosial rifahının yüksəldilməsinə yönələn dövlət ailə siyasətinin göstəricisidir. Bu gün Naxçıvan şəhərində Ali Məclis Sədrinin dəstəyi ilə yaradılan Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin fəaliyyəti də günün tələbləri səviyyəsində qurulur. Ailələrə dövlət dəstəyinin artırılması məqsədilə onlayn xidmətlərin reallaşdırılması istiqamətində muxtar respublika rəhbərinin tapşırıqlarına uyğun layihələr hazırlanır, tədbirlər müəyyənləşdirilir. Həyata keçirilən kompleks tədbirlər muxtar respublikamızda sağlam ailə mühiti və sağlam gələcək naminə görülən məqsədyönlü siyasətin bəhrələridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid Beynəlxalq Ailə Günü münasibətilə bütün ailələri təbrik edib, ailə dəyərlərimizin qorunmasında onlara uğurlar arzulayıb.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək bildirib ki, muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsi ailələrin gəlirlərinin artmasına, sosial vəziyyətlərinin yaxşılaşmasına xidmət edir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" səmərəli məşğulluğa, işaxtaranların işlə təminatına və sosial müdafiəsinin güclənməsinə geniş imkanlar açıb. Bu günədək 185 aztəminatlı ailəyə bu məqsədlə müvafiq köməklik göstərilib.

Tədbirdə uzunömürlü, hərbçi, ailə təsərrüfatı ilə məşğul olan ailələrin üzvləri çıxış edərək muxtar respublikada ailələrin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Beynəlxalq Ailə Günü münasibətilə ailələrə hədiyyələr təqdim olunub.

Sonra Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri və istedadlı gənclər arasında keçirilən "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VI muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıblar. Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək qalibləri təbrik ediblər.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin "Şəlalə" instrumental ansamblının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qrupunun, Naxçıvan şəhərindəki 11 və 3 nömrəli uşaq bağçaları fidanlarının və nümunəvi musiqiçi ailələrin üzvlərinin ifa və çıxışları alqışlarla qarşılanıb.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Ailə – ömrün yolyoldaşı... (esse)

***Sadəcə, dörd hərf – ailə... İki nəfərin nikahda bir-birinə uzun bir yolçuluqda yolyoldaşı olmağa söz verdikləri an "doğulur" ailə. İlk cümləsi "xoşbəxt olun"la başlayan, lakin qarşıda hələ ömrün düz dörd fəslindən bəhs edəcək kitabın yazılmasını bir imza ilə gerçəkləşdirənlər gətirir bu ailəni dünyaya. Bir-birinə ömür-gün yoldaşı olmaq istəyənlərin bir qələmlə yazdıqları ailə kitabı, ömür kitabı... Dörd fəsilli bu kitabı vərəqləyərkən öncə təbiətlə insanın vəhdəti gəlir gözlər önünə. İnsanmı təbiəti, təbiətmi insanı yaratmış? Bu, təbii ki, hələ də bir sirr olaraq qalmaqdadır. Lakin bu iki varlığın oxşarlığıdır insanı düşündürən. Nə qədər bənzərdir təbiətlə insan... Uşaqlıq ilk bahar, gənclik bahar-yay, orta yaş payız, qocalıq qışdır. Hələ insan kimi uzunömürlü ola bilən ailələr də təbiətə, onun dörd fəslinə bənzərdir.***

Yeni qurulan ailə ilk bahara bənzəyir. Torpaq altından yavaş-yavaş pöhrə verən və gələcəyin barı-bərəkəti olacaq taxıl zəmilərinə, fidanları yenicə əkilən, lakin qarşıda dünyaya ətir saçacaq gül plantasiyalarına bənzəyir. Ailənin ilk baharında iki gənc ev qurmağa, qoca nənələrimiz demişkən, yurd-yuva sahibi olmağa can atırlar. Ata-analar gənc ailənin qayğıları ilə yaşayır, onların da ev-eşik sahibi olmaları üçün çalışırlar. Bir azdan baharın ən gözəl çağı – min bir rəngli çiçəklərin təbiətə səpildiyi, hər yerə ətrini saçdığı dövrü gəlir ailənin. Dünyaya körpə gəlir. Dünənədək iki gəncin sevgisiylə dolan mənzilə yeni nəfəs qatılır. Ev-eşik, divarlar körpə qoxusu verir. Bu qoxu iki gənci valideyn edir, çiyinlərinə böyük bir məsuliyyət qoyur. Övladlarını alırlar qucaqlarına. Dünyanın ən gözəl sevgisi olan övlad sevgisi nə qucağa sığır, nə mənzillərin otaqlarına... Bu sevgi bir ovuc boyda olan, lakin nələr-nələr sığdıra bildiyimiz ürəyimizə sığır. Ata-ana olur insan. Elə bu zaman da ata-ana qədrini bilməyə başlayırıq. Yuxusuz gecələr, qayğılı gündüzlər anamızı andırır bizə. "Bir ailəm var, məsuliyyəti tam mənim üzərimdədir" hissi atamızı xatırladır bizə. Sanki baba-nənələrimizin "ata-ana olmayan bilməz valideyn qədrini" deyimini də məhz bu zaman dərk edirik...

Oğul, qız – fərqi yoxdur, doldurur evimizi sevinclə, xoşbəxtliklə... Qayğılı günlər başlayır ailədə. Nə qədər gözəl günlərdir bu qayğılı günlər. İnsanın həyatını maraqlı edən, ömrünü mənalandıran günlərdir övlad qayğısı çəkmək. Onun böyüməsini izləmək – balam bu gün bir addım atdı, bir kəlmə söz söylədi, bir şeir dedi, birinci sinfə getdi, əla qiymət aldı, idmanda uğur qazandı, olimpiada qalibi oldu, universitetə daxil oldu, əsgər getdi, ailə qurdu kimi sevinclərini yaşamaqla bərabər, xəstələnəndə qayğısını çəkmək, niyə yemədi, niyə yaxşı oxumadı, niyə yoldaşlarından geri qaldı, – deyə narahatlıq keçirmək də gözəldir. Axı bu, bir ailədə yaşananlardır. Yaxşılar da, yaxşı olmayanlar da bizimdir. Yaxşını lap yaxşı, yaxşı olmayanı yaxşı səviyyəsinə gətirməkdir valideynlik vəzifəsi, məsuliyyəti.

Ailəyə cəmiyyətin kiçik bir parçası deyirik. Bu kiçik qurumda özünü tapanlar cəmiyyətdə də özünü təsdiq edə bilir. Bu, ailə adlı ömrün yay fəslinə bənzəyir. Necə ki yayın sonuna doğru təbiət bütün barını qoyur ortaya, ailənin də "yay mövsümündə" onun cəmiyyət üçün verdiklərinin "keyfiyyəti" çıxır meydana.

Xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərini əks etdirən, özünəməxsus ənənələri ilə nümunə olan ailələrimiz. Bir evin dörd divarı arasında, bir süfrənin başında dostluğu, yoldaşlığı, birliyi, vətənpərvərliyi, etibarı, qənaəti, paylaşmağı aşılayan ailələrimiz. Böyük-kiçik yeri bilməyi, harada oturub-durmağı, harada necə danışmağı öyrədən ailələrimiz. Ailə dəyərlərimizi dəyərləndirən, "ömrünün" ayrı-ayrı zamanlarında "gümüş", "qızıl", "brilyant" toylu-büsatlı ailələrimiz, nə gözəl yaraşır ömrünə hər fəslin öz "donu". Bu donları dəyişdikcə uzanır ömrün, xalqımıza məxsus uzunömürlü ailə modelini yaradırsan evlərimizdə.

Ömrün qış fəsli saçları bəyazlaşdırdıqca bir ömür yolyoldaşı olanların bir-birinə sevgisi, sayğısı daha da artır. Çünki bu yolçuluqdakı maneələri, keşməkeşləri aşmaq, nahamarlıqları qət etmək, payız küləklərinə sinə gərmək əzmi insanları bir-birinə dost edir, ayrılmaz dost... Onları gənc ailələrin nəsihət verəninə, məsləhətçisinə çevirir. Baba-nənə edir. Övladdan da şirin paylı – nəvəli, nəticəli, kötücəli edir. Və bir ömürlük yolyoldaşlarının çatdığı son mənzil neçə-neçə nəsillər sonra da xatirələrdə gözəl bir ailənin ünvanını yaşadır.

Lakin bəzən ömrünün payız fəslini keçib qışa – sona çatmayan ailələrimiz də olur. Dörd fəsli başa vura bilməyən ailələr yarımçıq ömürlü ailələrdir. Təbiətin fəsillərinin ardıcıllığı öz "əlindədirsə", ailənin "dörd fəslini" sıralamaq biz insanların əlindədir. Bütün çətinlikləri aşa biləcək, əzmkar, mübariz insanlarda. Elə isə bir ailənin belə dağılmasına izin verməyək. Qoruyaq, nəyin bahasına olursa-olsun, qoruyaq. Övladlarımızı atasız, anasız qoymayaq. Üzlərindəki sevincin, təbəssümün, gülüşün yerinə öz əllərimizlə kədər, gözyaşı toxumları səpməyək. Çünki zaman bu toxumları cücərtdikcə belə uşaqlar həyatın sərt sillələri ilə qarşılaşmalı olurlar. Tək uşaqlarmı? Xeyr, həm də təklənən qadınlar, kişilər. Bir də yarımçıq ömürlü ailələri özlərinin kədərinə çevirən böyüklərimiz... Elə buradaca böyük şəxsiyyətlərdən birinin gözəl kəlamını xatırlamaq yerinə düşər: – Bütün dünyanı gəzib səadət axtardım, tapmayıb kor-peşman evə döndüm. Sən demə, o, evdə məni gözləyirmiş. Bu ev isə yalnız bir ömürdə bir-birinin yolyoldaşına çevrilənlərin ünvanı ola bilər. Səadət dolu ünvan...

✍ **Mətanət MƏMMƏDOVA**

## Seminar keçirilib



*Dünən Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birlikdə "Məktəbəqədər tərbiyə müəssisələrində kurikulumların tətbiqinin məqsəd və vəzifələri" mövzusunda seminar keçirilib.*

Seminarı giriş sözü ilə institutun prorektoru Azad Novruzov açaraq qeyd edib ki, Naxçıvan Müəllimlər İnstitutu muxtar respublikada məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə kadr hazırlığı aparan yeganə ali təhsil müəssisəsi kimi yaradılmış şəraitdən istifadə edərək öz işini günün tələbləri səviyyəsində qurmağa çalışır. Bildirilib ki, məktəbəqədər təhsil pilləsində uşaqların təhsil alması təlim-tərbiyə işinin daha səmərəli qurulmasını tələb edir. Bu zaman psixologiya, pedaqogika, sosiologiya, biologiya və digər elmlərin nailiyyətlərinə, milli mədəniyyətə, adət-ənənələrə, eləcə də müasir dünya təcrübəsinə istinad olunması zəruri hesab edilir. Yeni məzmuna görə, məktəbəqədər müəssisələrdə köhnə təlim modelindən imtina zəruridir. Standartlar pedaqoji prosesdə tərbiyəçi-müəllimlərdən yeni iş formalarına müraciət etməyi tələb edir.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva çıxış edərək muxtar respublika paytaxtında məktəbəqədər tərbiyə müəssisələrində yaradılmış şəraitdən və dövlətimizin bu sahəyə olan diqqət və qayğısından danışıb.

Seminarda Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyeva, Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimləri Tamara Baxşəliyeva, Solmaz Cabbarova çıxış ediblər.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası-95

# Bahar təravətli, gözəl NAXÇIVAN!



Şərqin qapısıdır, oğuzun yurdu,
Nəsillər qoynunda xaniman qurdu.
Heç vaxt yıxılmadı, ayaqda durdu –
Verdi düşməninə xələl Naxçıvan,
Bahar təravətli, gözəl Naxçıvan!

Doxsan beşdir muxtariyyət yaddaşın,
Tarixlər yaşadır torpağın, daşın.
Dost-tanış içində ucadır başın,
Hörmətin də vardır əzəl, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Haqdır, ədalətdir, inamdır yolun,
Məğrurluq əzəldən olub simvolun.
Tamaşa etdikcə sənə sağ-solun
Bəlli olur sadiq əməl, Naxçıvan,
Bahar təravətli, gözəl Naxçıvan!

Sənə hər bir fəsil, mövsüm yaraşır,
Yaz gələndə çayların coşub-daşır.
Nübar göycən el-obanı dolaşır,
Tərxunun da gəzir əl-əl, Naxçıvan,
Bahar təravətli, gözəl Naxçıvan!

"Naxçıvanın qızı, duzu, qarpızı",
Al laləsi adlanır dağlar qızı.
Baldırğanın sulandırır ağızı –
Qovurman da olur özəl, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Pencərinin ləzzətdə yox bənzəri,
Tərkibində çoxdur şəfa cövhəri.
Gül-çiçəyin yalan edib ənbəri.
Dadlı olur burda xəngəl, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Gün ötdükcə çoxalır bar-bəhərin,
İşıqlıdır, nurludur hər səhərin.
Möcüzədir yer altda "Duz şəhərin",
Sərvətin aranır əl-əl, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Batabat hər kəsi eyləyir heyran,
Ağbulaq olubdur turizmə məkan.
Bir arada edir dörd fəsil cövlan –
Göygölünə yoxdur bənzər, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Yollar abadlaşıb olubdur rəvan,
Gül-çiçəklə bəzənibdir xiyaban.
Gələn qonaqları eyləyir heyran:
– Vuran ürək, yaradan əl, Naxçıvan...
Bahar təravətli, gözəl Naxçıvan!

Həyatda heç bir şey heçdən yaranmır,
Böyük səylə çalışmayan qazanmır.
Davam edir yüksəlişin dayanmır –
Çox möhkəmdir səndə təməl, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Ucalıb binalar, salınıb bağlar,
Gözəlliyin düşmən gözünü dağlar.
Cəmləşibdir səndə böyük maraqlar –
Yüksəlişdə var saf əməl, Naxçıvan!
Bahar təravətli, gözəl Naxçıvan!

Haqqında söhbətim tükənmir, bitmir,
Sənsiz heç Günəş də məni isitmir.
Hüsnünün vəsfinə sözlərim yetmir –
Aciz qalıb şeir, qəzəl, Naxçıvan,
Bahar təravətli, gözəl Naxçıvan!

**Nail ƏSGƏROV**

***Bu şeir "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***







## Hüseyn Cavidin natamam əsəri – Ərtoğrol



*Hüseyn Cavidin ev-muzeyində Ərtoğrol Cavidin anadan olmasının 100 illik yubileyinə həsr olunan "Hüseyn Cavidin natamam əsəri – Ərtoğrol" adlı tədbiri Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov açıb.*

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 aprel tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin dəyərli simalarından biri kimi zəngin irs yaradan, musiqişünas, rəssam və tədqiqatçı Ərtoğrol Cavidin 100 illik yubileyi qeyd olunur.

Diqqətə çatdırılıb ki, böyük ədib Hüseyn Cavidin nakam oğlu Bakıda doğulub, Naxçıvanda dünyasını dəyişmiş bəstəkar Ərtoğrol Cavid Azərbaycan Pedaqoji İnstitutundan məzun olduqdan sonra musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəyovun sinfində davam etdirib, eyni zamanda konservatoriyanın nəzdindəki musiqi məktəbində dərs deyib, gənc tədqiqatçı kimi musiqi folkloru nümunələrinin toplanması və tədqiqində iştirak edib.

Filologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Hüseyn Həşimli "Ərtoğrol Cavidin bədii yaradıcılığı" mövzusundakı çıxışında bildirib ki, o, qısa ömür sürsə də, çoxşaxəli və zəngin fəaliyyəti ilə tanınıb. İstedadlı gəncin yaradıcılığının bir qolu da bədii ədəbiyyatla əlaqədardır. Ərtoğrol Cavidin bəlli olan ilk qələm təcrübəsi z1927-ci ildə səkkiz yaşında ikən yazdığı "Bizim bağ" adlı mənzum parçadır. Əsərdən-əsərə püxtələşən Ərtoğrol Cavidin müxtəlif vaxtlarda qələmə aldığı "Bahar", "Borjom", "Göyərçinin naləsi", "Sönük həyat", "Dalğa", "Ay", "Qalibiyyət nəğməsi", "İspan qadının dilindən layla", "Sənsən", "Layla" və digər şeirləri onun poeziyaya marağının təsadüfi olmadığını göstərir. Bu şeirlərdəki orijinal duyum və deyim tərzi diqqəti çəkir.

Qeyd olunub ki, Ərtoğrol Cavidin bir sıra nəsr əsərləri də vardır. Bunlardan "Sükutun harmoniyası", "Uğursuz gecə", "Məktub", "Oxu, bülbülüm, oxu", "Sənsən, sən", "Vərəmli bir qız", "Gənc qadının ilk çocuğu ölürkən" kimi əsərləri dərin lirik ovqatına, hiss-həyəcanın qabarıq bədii təcəssümünə görə mənsur şeir də sayıla bilər. "Uğursuz gecə" əsərində Ərtoğrol atası Hüseyn Cavidin həbsə alındığı 1937-ci ilin 3 iyun gecəsini təsirli bir şəkildə nəzərə çatdırıb. Onun "Vərəmli bir qız", "Gənc qadının ilk çocuğu ölürkən" adlı nəsr əsərlərində isə nakam ölüm, həyatdan vaxtsız və nisgillə köçmək mövzusu aparıcıdır. İrihəcmli nəsr əsəri kimi düşündüyü, lakin tamamlaya bilmədiyi "Ciman" adlı əsərdə gənc müəllif insanın həyatının mənasının xalqa xidmətdə olduğunu təsdiqləyirdi.

Vurğulanıb ki, Ərtoğrol Cavid dramaturgiya sahəsində də uğurlu yaradıcılıq axtarışları aparıb. Onun arxivində bəzi dramatik əsərlərinin eskizləri və parçaları vardır. 1939-cu ildə yazdığı "Eqoistin taleyi" pyesi isə ümumən, bitkin sayıla bilər. Bu əsərdə yalnız özünü düşünənlərlə Vətən, xalq üçün çalışanlar qarşılaşdırılır.

Ərtoğrol Cavid Pedaqoji İnstitutda (indiki ADPU-da) tələbə ikən bir sıra dünya klassiklərinin yaradıcılığı barədə maraqlı referatlar hazırlayıb ki, bunlar onun geniş mütaliəsindən və dərin elmi-ədəbi təfəkküründən soraq verir. O, Musiqi Elmi-Tədqiqat Kabinetində çalışdığı vaxtlarda Azərbaycanın ayrı-ayrı regionlarından toplanmış müxtəlif janrlı folklor nümunələri, eləcə də şifahi xalq ədəbiyyatına dair bəzi tədqiqat əsərləri barədə dəyərli elmi rəylər də yazıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aparıcı məsləhətçisi Leyla Əlimərdanovanın, Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin baş fond mühafizi-elmi işçisi Naibə Mirzəyevanın çıxışları dinlənilib.

Sonda muzey ekspozisiyasına baxış olub.

**Ramiyyə ƏKBƏROVA**

## Muxtar respublika turnirinə yekun vurulub



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda 2002-2003-cü illər təvəllüdlü yeniyetmə oğlanlar arasında basketbol üzrə keçirilən Naxçıvan Muxtar Respublika turniri başa çatıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi turnirdə 4 komanda dairəvi sistem üzrə mübarizə aparıb.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində təşkil olunan turnirin son günündə əvvəlcə meydana "Babək" və "Şərur" komandaları çıxıb. Bu görüşdə qələbəni babəklilər bayram edib. Günün ikinci – "Ordubad"-"Naxçıvan" matçı gərginliyi ilə yadda qalıb. Son dəqiqələrə kimi üstünlüyü əldən verməyən Naxçıvan təmsilçisi meydanı 35:34 hesablı qələbə ilə tərk edib.

Ümumi nəticədə daha çox xal toplayan "Naxçıvan" komandası turnirin qalibi olub. "Babək" və "Ordubad" komandaları ikinci və üçüncü yerlərlə kifayətləniblər.

Sonda qaliblər diplom, fəxri fərman və hədiyyələrlə təltif olunublar. Turnirin qalibi – "Naxçıvan" komandası isə "Heydər Əliyev kuboku"na layiq görülüb.

Mükafatları Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov, Təhsil naziri Rəhman Məmmədov və Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədri Mahir Əliyev təqdim ediblər.

**Ceyhun MƏMMƏDOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində elektrik montyoru peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 5 iyun 2019-cu il tarixədək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə Məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1.Yaşayış yerindən arayış*
*2.Şəxsiyyət vəsiqəsinin surəti*
*3.Tibbi arayış*

**Əlaqə telefonu: 545-32-33**

***İtmişdir***

Zeynalova Şəhla Məhərrəm qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən 30 noyabr 2018-ci ildə verilmiş AA-117588 nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 340